# AZƏRBAYCAN RESPUBLİKASININ AUDİTORLAR PALATASI ŞURASININ QƏRARI

**Bakı şəhəri** **№260/3** **22 yanvar 2015-ci il**

**Auditor andının içilməsi prosedurlarının hazırlanması barədə**

Auditorların Peşə Etika Məcəlləsinin 14.1-ci bəndinə uyğun olaraq, Azərbaycan Respublikası Auditorlar Palatasının və Palata Şurasının 2015-2017-ci illər üzrə iş planlarının "Auditor andının içilməsi prosedurlarının hazırlanması" barədə 1.22-ci və 16-cı müvafiq bəndlərinin icrası ilə əlaqədar, Kadr hazırlığı, akkreditasiya və beynəlxalq əlaqələr idarəsi (S.Gülməmmədov) tərəfindən hazırlanmış auditor andının içilməsi ilə bağlı prosedurları və Şura üzvlərinin təkliflərini müzakirə edərək, Auditorlar Palatasının Şurası

**Q Ə R A R A   A L I R:**

**1.** Kadr hazırlığı, akkreditasiya və beynəlxalq əlaqələr idarəsi (S.Gülməmmədov) tərəfindən hazırlanmış auditor andının mətni və auditor andının içilməsi ilə bağlı prosedurlar təsdiq edilsin (əlavə olunur).

**2.** Kadr hazırlığı, akkreditasiya və beynəlxalq əlaqələr idarəsinə (S.Gülməmmədov) tapşırılsın ki, Üzvlük məsələləri üzrə komitə (İ.Əliyev) ilə birgə hal-hazırda fəaliyyətdə olan və auditor adı almaq üçün imtahanları müvəffəqiyyətlə vermiş auditorlara 2015-ci ilin I rübündə qrafik üzrə auditor andının içilməsi ilə bağlı prosedurların həyata keçirilməsini təşkil etsinlər.

**3.** Kadr hazırlığı, akkreditasiya və beynəlxalq əlaqələr idarəsinə (S.Gülməmmədov) və Üzvlük məsələləri üzrə komitəyə (İ.Əliyev) tapşırılsın ki, gələcəkdə də auditorların and içmə prosedurlarının həyata keçirilməsini təmin etsinlər.

**4.** Bu qərarın və auditor andının mətnlərinin Palatanın internet saytında yerləşdirilməsi F.Qarayevə və R.Ələkbərova həvalə edilsin.

**ŞURANIN SƏDRİ** **V.NOVRUZOV**